Ədalət.- 2020.- 19 noyabr.- S.6.



*Hacı Cəfər həkim QULİYEV,*
*AYB və AJB-nin üzvü,*
*"Şöhrət" ordenli*
*təqaüddə olan*
*həkim-cərrah*

# ARTIQ GERÇƏK OLDU GÖRDÜYÜM RÖYA

*Azərbaycan Respublikasının Prezidenti,*
*Qarabağ savaşında şanlı tarix yazan,*
*Ali Baş Komandan cənab İlham Əliyevə*

**1.**

Budur, tarix yazır şanlı ordumuz,
Zəfər yürüşüylə haqq davasıyla.
Yağıdan alınır bir-bir yurdumuz,
Cəngi sədasıyla, şur havasıyla.

**2.**

Bu günü gözlədik gözümüzdə yaş,
Kədər ömrümüzün qayçısı oldu.
Bu günü gözlədik qəlblərdə təlaş,
De, kim həqiqətin carçısı oldu?!

Dünya boy göstərdi düşmən səfində,
Bizim cərgəmizdə duran olmadı.
Düşmən öz işində, düşmən kefində,
Ağzının üstündən vuran olmadı.

Qubadlı sızladı, Kəlbəcər yandı,
Ağdamın tüstüsü başından çıxdı.
Zəngilan, Cəbrayıl dardayam dedi,
Laçının göz yaşı daşından çıxdı.

Füzuli utandı öz ustadından,
Bağışla, adını qoruyammadım.
Az qaldı adım da çıxa yadımdan,
O sönməz odunu qoruyammadım.

Yada təslim etdim Xanın kəndini,
Bəlkə yer ayrıla girəm deyirdim.

Kaş gözlər görməyə bu rişxəndini,
Yumruqtək möhkəməm, birəm deyirdim.

Hələ o xan Şuşam, aman, Allahım,
Xalqımın qüruru, baş tacı idi.
Necə bülənd oldu göylərə ahım,
Bütün dərdlərimin əlacı idi.

**3.**

Beləcə yaşadım, gözümdə kölgə,
Nə az, nə də çox - iyirmisəkkiz il.
Dedim torpaqları almasaq əgər,
Bu həsrət, bu zillət qurtaran deyil.

Beləcə yerimdə qıvrıldım hər gün
Danı gözlərimdə sökdüm hər gecə.
Bütün sərhədləri vurub dağıtdım,
Qanayan yaramı tikdim hər gecə.

**4.**

Bir gecə özüm də bilmədim necə,
Məni yatağımda yuxu apardı.
Gördüm ki, İlahı, həmin o gecə
Göyüzü zəhmlə haray qopardı.

Beləcə göylərin yarıldı bağrı,
Endi bir cəngavər yerin üzünə.
Elə bil yox oldu canımdan agrı,
Bir yol baxan kimi onun gözünə.

Mən kimi görürdüm qarşımda, Tanrım,
Ali Baş Komandan İlham Əliyev!
Elə bil komaya düşmüşdüm, məni
Çıxardı komadan İlham Əliyev.

Sevgisi böyükdü bu xalqın sənə,
Bu inam, etimad tükənən deyil.
Sevgiylə çevrilir torpaq vətənə,
Ucalmaq istəsən, torpağa əyil.

Belə söyləyibdi aqil babalar,
Belə söyləyibdi Ulu öndərim!
Torpağı qorudum, vətənə döndü,
Əkdim ki, barını-bəhrini dərim.

**5.**

Otuz il yağılar zəhər qatdılar,
Mənim torpağıma, mənim daşıma.
Gələnlər bizləri hey aldatdılar,
Olmazın müsibət gəldi başıma.

Amma əyilmədim, amma sınmadım,
Dedim ki, ağatlı oğlan gələcək.
Baxıb sevinəndə düşmənim, yadım,
Deyirdim gözləyin, zaman gələcək!

Allahın lütfiydi, Tanrı sirriydi,
Endi göy üzündən Baş Komandanım!
Bu gəliş düşmənə ölüm hökmüdü,
Qoymaz daş üstündə daş komandanım.

**6.**

Döyüş libasını geydi Komandan,
İrəli əmrinə imzanı atdı.
Tərpənin, igidlər, gözləmir zaman,
Bu əmr hamının qəlbinə yatdı,

Girdilər meydana ərən oğullar,
Düşmənin başına od ələdilər.
O namərd, şərəfsiz soysuz yanların,
Tutub yaxasından silkələdilər.

İti qovan kimi qovduq onları,
Çəkdik sinəsinə çəkilməz dağı.
Bu təlxək yanları, düşük yanları,
Əzərək Şuşaya sancdıq bayrağı.

Artıq dalğalanır uca bayrağım,
Füzuli, Cəbrayıl, Zəngilanımda.
Namusdu, qeyrətdi mənim yarağım,
Həmişə gəzdirdim onu yanımda,

Qubadlı qovuşdu azadlığına,
Xoş müjdə yetişdi Suqovuşandan.
Hayıma hay verdi Murov zirvəsi,
Qələbə başlandı elə o andan.

İgidlər canıyla, qanıyla aldı,
Hər qarış torpağı, hər çopur daşı.
Düşmənin canına vəlvələ saldı,
Ucaldı vətənin göylərə başı.

**7.**

Ağdərə, Xocalı, Ağdam, Kəlbəcər,
Qovuşar tezliklə azadlığına.
Laçında sonalar qayıdar gölə,
El-oba bürünər yamyaşıl dona.

Ali Baş Komandan bəyan eylədi,
Az qalıb həsrətin bitdiyi gunə.
Bütün bölgələrə bayrağı sancaq,
Sonra hazırlaşaq toya-düyünə.

İndi tarix yazır müzəffər ordum,
Müqəddəs torpağın hər qarışında.
Ali Baş Komandan öndə dayanıb,
Dünya lideridir müdrik yaşında.

**8.**

Böyük təltifləri fəxri adları,
Bizə sən vermisən, Cənab Prezident!
Baxıb işimizə, əməlimizə,
Sən layiq görmüsən, Cənab Prezident!

Şükür cəlalına, ey ulu Tanrım,
Dərgahdan cəngavər, paşa, bəy endi.
Rütbəni sən verdin - Generalissimus,
Sevinclə, coşquyla xalqım bəyəndi.

**9.**

Düşmən imza atdı təslim aktına,
Ordumuz önündə əyildi başı.
Vətən oğulları tarix yazdılar,
Sevindi yurdumun torpağı, daşı.

Otuz il gözlədik, inan bu anı,
Otuz il gözlədik gözlərdə kədər.
Tanrı özü verdi xeyir-duanı,
Şükür, zəhmətimiz getmədi hədər.

İndi alqış deyir şərinə dünya,
Vətən sevgisinin təntənəsi bu!
Artıq gerçək oldu gördüyüm röya,
Haqqın, ədalətin ölməz səsi bu!